# "ÖMRÜ SÖZƏ VERDİM"

## *İlham Məmmədlinin şeirlər kitabı üzərində düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Ayrı-ayrı vaxtlarda sözü ucuz tutmaq, sözün cəmiyyətimizdə o qədər də önəmli olmadığını iddia etmək halları ilə az qarşılaşmamışıq. Amma sözün gücünü, sözün qüdrətini, bir sözlə sənətin, bədii sözün insanların mənəvi mühitinə necə təsir etdiyini bilənlər az deyil. Onu əlavə edirəm ki, əgər bədii söz olmasaydı, insanlar müasir sivilizasiyaya, yəni mənəvi zənginlik mərtəbəsinə indiki səviyyədə çata bilməzdilər. Elə bircə onu deyirəm ki, dünyanın böyük söz sahibləri Nizami, Füzuli kimi simalar olmasaydı, insanlığın nə qədər kasıb olduğunu təsəvvür etmək o qədər də çətin olmazdı.




Mən bilavasitə kitab nəşri üçün bağlı olduğum üçün kitaba həmişə xüsusi önəm vermişəm. Həmişə düşünmüşəm ki, kitabdan ayrı düşmək, kitaba biganə nəzərlərlə baxmaq mənəvi korluqdur. Cəmiyyətin işıqlı adamları həmişə kitabsevərlər, kitab oxuyan, kitab yazan adamlardır. Bu mənada, nəşr olunan hər bir kitabda mən iki cəhəti xüsusilə, arayıram; bir müəllifin özünü, bir də onun cəmiyyətə aşılamaq istədiyi duyğuları.

Şeirlər söz çəməninin çiçəkləri kimi bizim ruhumuzu oxşayır, poeziya bizə o hissləri təlqin edir ki, insanlığa rəğbət bəsləyək, insanları sevək. Şeiri ucuz tutanlara deyirəm ki, əgər ruhumuza təsir edən poeziya olmasaydı, insanlar az qala yırtıcıya çevrilərdi. İmzasını ilk dəfə gördüyüm müəlliflərin kitabına xüsu diqqət göstərmək mənim köhnə xasiyyətimdir.

İlham Məmmədli də bir alim kimi kifayət qədər tanınır. Ancaq onun poetik yaradıcılığı mənim üçün yenidir. Kitab mövzulara görə ayrı-ayrı bölmələrə ayrılıb. Birinci bölmədə müəllif təqdim etdiyi şeirlərini «Mənim həyat yolum, mənim söz yolum» başlığı altında cəmləyir. Bu bölmədə müəllifin beş şeiri verilib. «Mən də şeir yazıram», «Gedirəm», «Dünya yaman dəyişib», «Sözləri», «Özgə»□ Əgər diqqət olunarsa, müəllif bu şeirləri ilə özünün həyat kredosunu təqdim edir. Görünür, şeir yazmağı, əslində, həyatının bir parçası kimi qəbul edir. Yəni onun həyat uğrunda cəmiyyətin mənən saflaşması uğrunda mübarizəsi elə həyatının mənasıdır: «Ürəyimin qanıyla mən də şeir yazıram, Elə sanma əzizim, gündə şeir yazıram. Mərdə kəc baxılanda, Mizanlar yıxılanda, Ürəyim sıxılanda, Onda şeir yazıram... Kəlbəcərin havası, Hər dərdimin davası O dağların səfası Canda şeir yazıram. Ömrün gəldi gedəri, Bu taleyin qədəri, Bir millətin kədəri, Qanda şeir yazıram. Bu dünyanın halından, yüz cür qeylü-qalından, Ruhumun əhvalından, Sonda şeir yazıram». Göründüyü kimi, müəllif sonuncu bənddə adını çəkmir. Amma mütləq nəzərə alınmalıdır ki, onun özünün də mənsub olduğu Kəlbəcər ədəbi mühiti poeziyanın qayda-qanunlarının əməl olunduğu ən müqəddəs məkanlardandır. Yəni kəlbəcərli ustadlar təxəllüsə xüsusi önəm verirlər. Onlar öz şeirlərində təxəllüslərini işlətməklə cəmiyyətin gələcəyinə müəyyən mesajlar ötürürlər. Bunlar öz yerində. Bu şeirin özündə də müəllifin mənəvi kredosu öz əksini tapıb. Əgər diqqət etsək, görərik ki, o, qanında, canında millətin kədərini daşıyaraq sözə sarılır. Başqa sözlə, öz poeziyasında millətin kədərini ifadə etməyi birinci şərt hesab edir. O, digər «Gedirəm» adlı şeirində öz yolunu Tanrı əsərinə bənzədir. Həqiqətən hər bir sənətkarın həyatı, ömür yolu və eləcə də şəxsiyyəti elə Tanrı əsəridir. Bu əsər o zaman bütöv olur ki, müəllif mənəvi mühiti ilə cəmiyyət içərisində görünən tərəfi arasında ziddiyyət saxlamır. Başqa sözlə, Mövlanə Cəlaləddir Rumi demiş: Ya göründüyün kimi olur, ya da olduğu kimi görünür.

İlham kifayət qədər cavan nəslin təmsilçisidir. Ancaq kifayət qədər yaşı da var. Altmışı təzə keçib. Yəni həyati müşahidələri ona imkan verir ki dünya haqqında, insanlar haqqında, təbiət və cəmiyyət haqqında ümumiləşmiş fikirlər söyləsin. «Dünya yaman dəyişib» adlı şeirində doğru deyir. Şeirində dediyi kimi, ömür yolunun yayında borana düşüb, qışından qorunmağa çalışıb, bir sözlə, bu dünyanın hər qarışı tikan bitirən üzündə boy göstərib. Deməк, onun haqqı var ki, mənəvi ölçülərinin ağrı və acıları haqqında cəmiyyətə açıq və aydın fikir deyə bilsin.

Müəllif yaradıcılığı boyu öz şeirlərini sanki həyatından proyeksiya edir. Yəni yaşadığı həyatın şəklini çəkir. «Sevgidən boy verən bir budağam mən» misrasında dediyi kimi, bu özünü ümumi insanlıq ağacının bir budağı hesab edir. Və doğru olaraq qeyd edir:

Ən çətin anımda mözə tapındım,
Söz oldu inancım, söz oldu andım.
Sözün atəşində qovruldum, yandım,
Əvəzin görmədim qəhərdən özgə.

Gözümdən Arazlar sağıldı getdi,
Cənnət yurdum-yuvam dağıldı getdi.
İlham bir əfsanə, nağıldı getdi,
Daha gözləyən yox, qəbirdən özgə.

İlham bu şeiri 1997-ci ildə yazıb. Azərbaycanın vəziyyətinin çox ağır olduğu çağlarda. Hələ düşmən çox güclü idi. Üstəlik də Azərbaycanın maddi durumu insanların demək olar ki, inamını da söndürmüşdü. Demək, cəmiyyətdə baş verən hər hansı bir hadisə şairlərin yaradıcılığında bu və ya digər dərəcədə özünü göstərir.

«Yurd ağrılı misralar» da ayrıca bir bölümdür. Bu bölmədə də şair yaradıcılığının ən maraqlı nümunələrini təqdim edir. «Apardı», «Türk oğlu», «Belə yaşmaq yetər», «Yiyəsi ölən yurdum», «Yetmədim mənzil başına», «Göyçə ağrısı», «Allah», «Üşüyür», «Getdi», «Qalıb», «Dağlara», «Bu payda qospodin, o tayda ağa», «Dərdim», «Mənim» «Vətən ağrısı»... bölmədə verilmiş şeirlərin adlarını təsadüfən saymıram. Diqqətli oxucu bu şeirlərin adları əsasında müəllifin düşüncələrini kifayət qədər aydınlığı ilə duya bilər.

Maraqlıdır ki, İ.Məmmədli kitaba cəmlənmiş şeirlərinin demək olar ki, əksəriyyətində yurd-yuva ağrısından bəhs edir. Vətənimizin sərhədlərindən qıraqda qalan yerlərimiz haqqında xüsusi ağrı ilə bəhs edir. Onun «Göyçə ağrısı» şeiri bu günümüzün mübarizəsi üçün aşıqlarımızın dilində bir mübarizə harayı kimi səslənə bilər:

Telli sazım bu nə nalə, bu nə ün,
Eli Qorqud qarğışımı tutubdu?
Sızıldayır neçə ayrı, dağ, düyün,
Komalarda həsrət onu bitibdi.

Pərdə-pərdə parçalanan vətəndi,
Bu «Yurd yeri» şah babamın sarayı.
«Yanıq Kərəm» bir millətə sitəmdi,
«Paşa köçdü» yurddaşların harayı.

«Göyçə gülü» xəzan vurmuş arzular,
Dərd Ələsgər, Qərib dərdi yalandı.
Uçuq məzar Allah nələr arzular?
Alı yurdu oymaq-oymaq talandı.

Elə təqdim olunan bəndlərə diqqət edək: "Yurd Yeri", "Yanıq Kərəmi", "Paşa köçdü", "Göyçə gülü" kimi saz havalarının adları çəkilir. Mən yazının əvvəlində, hələ keçən həftə qeyd etmişdim ki, İlhamın şeirlərində səsin-sözün sazla qovuşması ahəngi duyulur. Mənə elə gəlir ki, İ.Məmmədli Azərbaycan xalqının mənəviyyat tarixində sazın təsir gücünü ən yaxşı bilən müəlliflərdəndir. O, bütün varlığı ilə saza bağlıdır. Saz havalarının adları ilə də hər kəsin düşüncəsinə sazın təsirini gətirməyə çalışır.

Şeirin sonrakı bəndlərində də aşıq yaradıcılığının əsas obrazları xatırlanır, digər havaların adları çəkilir. Bir sözlə, şeiri oxuyan hər kəsə aşılamaq istəyir ki, öz keçmişini unutmayanlar güclüdürlər:

«Ruhani»yə at oynadan babalar,
Uzaq düşüb sazım hicran oxuyur.
Talandıqca əsir yurdlar, obalar,
Pərdələri qəm naxışı toxuyur.

Harda qalıb Koroğlumun nərəsi,
«Misri» susub, Misri qılınc qındadır.
Basılıbdır Çənlibelin bərəsi
«Cəlili»min bal nəfəsi qan dadır.

Bu həsrətə qənim kəsil, «Dilqəmi»,
Qoyma nalə asimana dayana.
Ürəklərdən sil qorxunu, sil qəmi,
Bəlkə yatmış qeyrətimiz oyana.

Onu da deyim ki, bu şeirin axırında yazılma tarixi 1989-cu il göstərilib. Bu da onu göstərir ki, İlham poeziyaya hələ yeniyetməlik çağlarından bağlı olub. Ancaq elmi tədqiqat işi onu daha çox cəlb etdiyindən həyatının əsas hissəsini elmə həsr edib.

Doğrusu, İlhamın poetik kitabının digər bölmələrində də geniş təhlillərə meydan verən məqamlar az deyil. Xüsusilə onun "Mən dünya ilə dil tapmadım" bölməsinə topladığı şeirlər məni çox düşündürdü. Açığı mənim bu qənaətə bir qədər etirazım var. İlham "mən dünya ilə dil tapmadım" desə də, dünya onunla dil tapıb onu dinləməyə hazırdır. Çünki İlham açıq söz adamıdır. Sözlərini də, fikirlərini də açıq-aydın bildirməkdən çəkinmir. Həyat isə insanların mübarizələri ilə tənzimlənir.

Mən İlham Məmmədliyə uğurlar arzulayıram.

*14.05.2025*